Ədəbi portretlər



# Dan yeri qızaranda

Müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, xalq yazıçısı, mənsur şeirimizin mahir yaradıcısı kimi şöhrət tapmış ədəbiyyatşünas-alim Gülhüseyn Hüseynoğlu az sözlə böyük mənalar ifadə etməyin ustadıdır. Müəllifin vaxtilə çap edilmiş "Seçilmiş əsərlər"inə ön söz yazan Mir Cəlal Paşayevə məxsus fikirdir: "Gülhüseyn heç kimə bənzəməyən, özünün dəst-xətti, üslubu olan, həmişə axtaran, poetik kəşflər edən, özünə tələbkar, əsərləri üzərində zərgər dəqiqliyi ilə işləyən, oxucusuna və ümumi ədəbiyyata hörmət bəsləyən, az yazmağı, mənalı yazmağı sevən yazıçıdır".

Əlbəttə, tarixdə izini qoyan, ömrü boyu sözünü deməyi bacaran şəxsiyyətlər çoxdur. Elə insanlar da var ki, onlar bizim müasirimiz olurlar. Amma əsl həyatlarından, talelərindən xəbər tutmuruq. Çünki o qədər sadə, təvazökar, "mən, mən" deyimindən uzaqda dayanıblar ki, gözümüzün önündəki bu mülayim insanların hansı mübarizələrdən keçdiklərini bilmirik. Bu günlərdə 85 yaşı tamamlanan yazıçı Gülhüseyn Hüseynoğlu kimi. Filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə Gülhüseyn Hüseynoğlunu çox haqlı olaraq "yeriyən klassik" adlandırır. Bu da səbəbsiz deyildir. Gülhüseyn Hüseynoğlu həqiqətən bütün ömrünü, yaradıcılığını çox fədakarcasına ədəbiyyata həsr edib. Bəzən də unuduruq ki, Gülhüseyn müəllim həm də Azərbaycan ədəbiyyatında mənsur şeirin banisidir.

O, 1923-cü ilin payızında Masallıda anadan olub. Lap körpə ikən valideynləri Bakıya köçüblər. Deməli olar ki, uşaqlıqdan üzü beri paytaxtın bütün qayğıları ilə nəfəs-nəfəsə dayanıb. Əvvəlcə 18, sonra isə 132 nömrəli məktəbdə oxuyub. 1937-ci ilin ağır repressiyaları başlayanda Gülhüseyn hələ orta məktəb şagirdi idi. Qəlbində düyünlənən xiffət, haqsızlığa qarşı barışmazlıq onu içindən sarsıdırdı. Bu səbəbdən də tələbəlik illərində özü kimi cəsarətli gəncləri başına yığaraq təqib və repressiyalara qarşı mübarizə aparmaq üçün "İldırım" təşkilatını yaratdı. Bu təşkilatın məramnaməsi 3 bölmədən ibarət idi: Azərbaycanın müstəqilliyi uğrunda çarpışmaq; 1937-1938-ci illərdə həbs edilmiş insanların işinə yenidən baxmaq və bəraət vermək; Azərbaycan dilinin dövlət səviyyəsində işlədilməsinə nail olmaq.

O qorxulu illəri xatırladan Gülhüseyn Hüseynoğlunun söhbətindən: "Təsəvvürünüzə gətirirsiniz ki, o vaxtlar ərizələr də rus dilində yazılırdı? Müşfiqi görməmişəm. Onun dərs dediyi 18 nömrəli məktəbdə oxusam da, xatırlaya bilmirəm. Amma böyük şairin bütün arzuları, məramları ruhuma elə hopmuşdu ki, onun həbsi, sonra da güllələnməsi mənə dinclik vermirdi. Müşfiq çox az yaşayıb, cəmi 29 il. Amma onun yaradıcılığına baxın. Bu adam 50 il yaşasaydı, nələr edərdi! Ona görə də lap gəncliyimdən özümü onun mənəvi övladı kimi hiss etmişəm. Biz o zaman istəyirdik ki, yaratdığımız təşkilat nüfuzlu adamlar tərəfindən təqdir edilsin, bizə kömək olunsun. Bu səbəbdən də o dövrdə çox məşhur olan bir şairə məktub göndərdik. Nədənsə imza yerinə ad və soyadlarımızı yox, "Mübarizlər" yazdıq. Məktubu da rəhmətlik İsmixan Rəhimov yazmışdı. Biz gözləyirdik ki, hansısa iclasda, tədbirdə o şair nəsə bir söz deyəcək. Çox qəribədir ki, həmin dövrdə bütün ali məktəblərdə eyni vaxtda inşalar yazdırırdılar. Sən demə, "KQB" həmin inşalardakı xətlə məktubun kim tərəfindən yazıldığını ayırd edib. Beləliklə, bizim səkkizimizi də aşkar edib tutdular. O dövrdə ölüm hökmü ləğv edildiyindən bizə 25 il, 5 il də səsdən məhrum olmaqla iş kəsdilər".

Təsəvvürünüzə gətirirsiniz, 8 gəncin mübarizliyi sonda nə ilə nəticələnib?! Stalinin ölümündən sonra həmin gənclər bəraət aldılar. Gülhüseyn müəllimin zindanda keçən 7 illik ömrü onun xatirələrində, səhhətində ağır iz qoysa da, isti yuvasına soyuqluq salsa da, işıqlı əməllərinin, yaradıcılığının üstündən xətt çəkə bilmədi.

Gülhüseyn Hüseynoğlunun "Ana" adlı ilk hekayəsi 1944-cü ildə "Ədəbiyyat qəzeti"ndə dərc edilib. "Bənövşə əfsanəsi" adlı ilk mənsur şeiri 1946-cı ildə işıq üzü görüb. Oçerk, povest, müxtəlif elmi-tədqiqat əsərləri yazsa da, müəllifin yaradıcılığında daha çox diqqət çəkən mənsur şeir və hekayələridir. Ədəbiyyat tənqidçiləri Gülhüseyn Hüseynoğlunu Azərbaycan ədəbiyyatında mənsur şeirin yaradıcısı kimi dəyərləndirirlər. Onun 30-dan artıq kitabı çap edilib. Mikayıl Müşfiqlə bağlı 22 kitabın tərtibçisi və redaktoru olub. Ölkə başçısının sərəncamı ilə Mikayıl Müşfiqin əsərləri latın qrafikası ilə üç cilddə çap edilərkən yenə də bu işin əziyyətini Gülhüseyn müəllim çəkməli olub. "Mikayıl Müşfiqin yaradıcılıq yolu" mövzusunda dissertasiya yazıb, doktorluq işi üzərində işləyib. Hazırda Bakı Dövlət Universitetinin Müasir Azərbaycan dili kafedrasının professoru olan Gülhüseyn Hüseynoğlu həm də tələbələrinin sevimlisidir.

Müxtəlif mövzulara müraciət etməyi sevən yazıçını həmişə insanın mənəvi aləmi, milli adət-ənənələrimiz düşündürüb. Bu mənada dillər əzbəri olan "Mücrü" mənsur şeiri xüsusilə diqqəti çəkir. Bu şeirin motivləri əsasında çəkilmiş qısametrajlı film də tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Əlbəttə, müəllifin əsərlərini təhlil etmək fikrində deyilik, amma bir fakt var ki, onu mütləq diqqətə çəkməliyik. Gülhüseyn müəllim bütün ömrü boyu Müşfiqə sadiq qalıb. Onun bu nakam şairlə bağlı hazırladığı kitabların sayına diqqət yetirdiniz. Bu, əslində iki o qədər Gülhüseyn Hüseynoğlunun öz şəxsi kitablarının yazılmaması deməkdir. Hətta çoxuna elə gəlib ki, Gülhüseyn müəllim Mikayıl Müşfiqin ya yaxın qohumudur, ya da həmyerlisidir. Onun Mikayıl Müşfiqə olan sonsuz məhəbbəti, dərin istəyi, hər il unudulmaz şairimizin ad günündə onu yad etməsi, Xızıya getməsi, qələm dostlarını başına yığıb tədbirlər keçirməsi ətrafa belə bir məlum fikir yayırdı. Halbuki Gülhüseyn Hüseynoğlunu Mikayıl Müşfiqə daha böyük ideyalar, istəklər, bir sözlə, ruh qohumluğu bağlayır. İndinin özündə də Mikayıl Müşfiqdən yazmaq istəyənlər mütləq tarixi mənbələrdən, kitabxanalardan çox Gülhüseyn müəllimə müraciət edirlər. Yaşının bu çağında da gördüyünü, duyduğunu olduğu kimi, obyektiv söyləməyi bacarır.

Xalq yazıçısı Gülhüseyn Hüseynoğlunun Azərbaycan ədəbiyyatında xidmətləri misilsizdir. Yaradıcı əməyi yüksək qiymətə layiqdir. Prezident təqaüdçüsü, ağsaqqal yazıçımız ölkəmizdə sənətə və sənətkara göstərilən diqqətdən, qayğıdan çox razıdır. Yenə də Müşfiqdən söz düşəndə kövrəlir: "Heyiflər olsun ki, Azərbaycanın bugünkü müstəqilliyini görmədi. Mənə elə gəlir ki, Müşfiqin ruhu həmişə başımızın üstündədir. O, elə bir ölümsüzlüyə qovuşub ki, hər səhər dan yeri qızaranda günəşlə birgə doğulur".

Fikrin səlisliyi diqqətimizi çəkdi. Mənasındakı müdrik düşüncə bizi çox uzaqlara apardı. Bəlkə də yer üzünün bütün yaxşı insanları elə ölümlərindən sonra yenidən Günəşlə doğulurlar. Bu səbəbdən də dan yerinin qızartısı adama qəribə təsir bağışlayır.

*Flora XƏLİLZADƏ,*
*"Azərbaycan"*